**Süleymanov E.İ.,**
BHTT-nın üzvü, vəkil ♦

## Ədalət muhakiməsinin ziqzaqları

A.Əliyeva 27.12.2011-ci il tarixdə Bakı şəhəri Səbail RPİ-yə və Səbail Rayon prokurorluğuna ərizə ilə müraciət edərək cinayət təhdidi altında yayılması qadağan olunmuş övladlığa götürmə sirrini qəsdən yayan Bakı şəhəri sakini Bəhram oğlunun AR CM-nin 175-ci və digər müvafiq maddələri ilə cinayət məsuliyyətinə cəlb edilməsini xahiş etmişdir;

Bəhram oğlu bu hərəkətləri ilə, iradələrinə zidd olaraq A.Əliyevanin ailəsinin şəxsi həyatına müdaxilə etmiş, xəbərləri, razılıqları və icazələri olmadan şəxsi həyatlarına aid məlumatlar toplayaraq əldə etdiyi sirri kənar şəxslərə yaymış və bununla da AR CM-nin 175-ci maddəsi ilə nəzərdə tutulmuş cinayət əməlini törətmişdir;

Lakin, cinayət işinin başlanması üçün kifayət qədər əsas və sübutların olmasına baxmayaraq, A.Əliyevanin hüquq mühafizə orqanlarına müraciət etdiyi tarixdən 5 ay müddət keçdikdən sonra Bakı şəhəri BPİ Səbail RPİ-nin 8-ci polis bölməsinin Rəis müavininin 23.04.2012-ci il tarixli məktubundan məlum olmuşdur ki, Bəhram oğlunun hərəkətlərində cinayət tərkibi olmadığına görə barəsində cinayət işi başlanmamış və toplanmış materiallar bölmənin dəftərxanasında işə alınmışdır;

“materiallar bölmənin dəftərxanasında işə alınmasını” “cinayət işinini başlanmasının rədd edilməsi haqqında qərar” başa düşsəm də, bu qərarının götürülməsi məqsədilə Səbail RPİ 8-ci PB-yə gəldikdə məlum olmuşdur ki, 6 ay ərzində aparılmış 150 vərəqdən artıq olan təhqiqat işinin əvəzində yalnız əməldə cinayət tərkibinin olmamasını izah edən sahə müvəkkilinin əlyazma raportu mövcuddur və “cinayət işinini başlanmasının rədd edilməsi haqqında” heç bir qərar qəbul edilməyib, sadəcə olaraq iş materialı adlandırılan sahə müvəkkilinin bu 1

---

♦ **Сулейманов Эльмар Ислам оглы** – член Международной организации правовых исследований, адвокат (Азербайджан)

vərəqlik əlyazma raportu bölmənin dəftərxanasında işə alınmışdır (bu terminin CPM-nin hansı normasından götürülməsini izah edə bilməmişlər).

Aparılan ilkin araşdırmanın nəticəsi olaraq sadə məktub yolu ilə cinayət işini başlamadan imtina edən Bakı şəhəri Səbail RPİ-nin hərəkətlərindən Bakı şəhəri Səbail rayon prokurorluğuna edilən müraciət də heç bir nəticə vermədikdə A.Əliyeva CPM-nin 449-cu maddəsi qaydasında Səbail rayon məhkəməsinə şikayətlə müraciət etmişdir.

A.Əliyeva şikayətini onunla əsaslandırmışdır ki, CPM-nin 207-ci maddəsinə əsasən, təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumat aldıqdan dərhal sonra bu məlumatı dərhal qeydə almaq və ona baxmaq, habelə 3 (üç) gün müddətində, bu mümkün olmadıqda 10 (on) gündən, ekspertin rəyinin alınması ilə əlaqədar 20 (iyirmi) gündən, bu Məcəllənin 207.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə 30 (otuz) gündən artıq olmayan müddətdə cinayət işinin başlanması üçün əsasların kifayət qədər olmasına dair ilkin yoxlama aparılmalı və bu yoxlamanın nəticələri üzrə cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul etməlidir.

CPM-nin 210-cu maddəsinə əsasən, CPM-nin 209-cu maddəsində nəzərdə tutulmuş hallarda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz səlahiyyətləri daxilində cinayət işinin başlanması barədə qərar çıxarır.

CPM-nin 1-ci maddəsinə əsasən, cinayət-prosessual qanunvericiliyi ona yönəlmişdir ki qanunla cinayət hesab olunan əməli törətmiş hər bir şəxsi ifşa etmək və cinayət məsuliyyətinə cəlb etmək mümkün olsun;

CPM-nin 8-ci maddəsinə əsasən, şəxsiyyəti cinayətkar qəsdlərdən qorumaq, cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq, cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək cinayət mühakimə icraatının vəzifələridir.

CPM-nin 12-ci maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən bütün şəxslərin Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunmasını təmin etməlidirlər.

Bundan başqa, AR Ali Məhkəməsi Plenumunun 27 dekabr 1996-cı il tarixli 5№-li qərarına görə də (ixtisarlarla), cinayət nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla qorunur. Zərər çəkmiş şəxsin hüquqlarını tənzimləyən qanunlara ciddi və ardıcıl əməl olunması işin düzgün həll edilməsinə və ədalətli qərar çıxarılmasına təminat verən şərtlərdən biridir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq A.Əliyevanın Səbail RPİ-nin və Səbail rayon prokurorluğunun onun 27.12.2011-ci il tarixli ərizəsi üzrə cinayət işinin başlanmasından imtinaya yönəlmiş hərəkətlərini qanunsuz hesab edilməsini bu fakt üzrə cinayət işinin başlanması Səbail RPİ-yə və Səbail rayon prokurorluğuna tapşırılmasını məhkəmədən xahiş etmişdir.

Lakin, Səbail rayon məhkəməsinin Hakimi Famil Nəsibov 21.05.2012-ci il tarixli qərarı ilə Bakı şəhəri Səbail RPİ-nin və Bakı şəhəri Səbail rayon prokurorluğunun A.Əliyevanın 27.12.2011-ci il tarixli ərizəsi üzrə cinayət işinin başlanmasından imtinaya yönəlmiş hərəkətlərinin qanunsuz hesab edilməsinə və bu fakt üzrə cinayət işinin başlanmasının Səbail RPİ-yə və Bakı şəhəri Səbail rayon prokurorluğuna tapşırılmasına dair nəzarət qaydasında 18.05.2012-ci il tarixli şikayət ərizəsini geri qaytarmışdır, Apelyasiya məhkəməsi isə bu qərarı qüvvədə saxlamışdır.

Işə baxan məhkəmə CPM-nin 449-cu maddənin müxtəlif hissələrini qərara köçürərək onu onunla əsaslandırmışdır ki, Səbail RPİ-nin 8-ci PB tərəfindən müraciətimizə verilmiş cavab məktubdan məhkəmə nəzarəti qaydasında şikayət verilməsi nəzərdə tutulmamışdır;

vəzifə səlahiyyətlərinə səti yanaşaraq, şikayət vermiş şəxsi məhkəmə iclasına dəvət etmədən, təhqiqat materiallarını cinayət təqibini həyata keçirən orqandan tələb etmədən onları öyrənmədən belə bir nəticəyə gələn Səbail rayon məhkəməsinin bu qərarını əsassız və qanunvericiliyə zidd hesab edirəm. Belə ki:

Məhkəmə cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından qərarın qəbul edilməsi və ya hərəkətin aparılması nəticəsində

hüquq və azadlıqları pozulan digər şəxslər şikayət vermək hüququna malik olmasına dair müddəasını (449.2-maddə) düzgün təbiq etmədən müvəkkilimin belə şikayət vermək hüququnu şübhə altına almışdır;

Belə ki, hazırki iş üzrə müvəkkilimin zərərçəkmiş statusu olmasa da, bu işə dair cinayət təqibini həyata keçirən orqanın qərarları (materialı dəftərxanada işə alınmasına dair), habelə digər hərəkətləri (cinayət işinin başlanmasından imtina edilməsinə dair hərəkətləri, 6 ay ərzində aparılmış təhqiqat materiallarının, çoxsaylı izahatların, sənədlərin, yazışmaların, etibarnamə və orderin itirilməsi) birbaşa olaraq müvəkkilimin hüquq və azadlıqlarının pozulması ilə nəticələnmişdir;

Bundan başqa, məhkəmə cinayət işinin başlanmasının rədd edilməsi, cinayət işi üzrə icraatın dayandırılması və ya ona xitam verilməsi ilə bağlı cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından məhkəməyə şikayət vermək hüququna malik olmasına dair müddəasını (449.3.5-ci maddə) düzgün təbiq etmədən cinayət işinin başlanmasının rədd edilməsi qərarının olmamasını əsas gətirərək nəzarət qaydasında şikayətin verilməsinin mümkünsüz hesab etmişdir;

Lakin, məhkəmə bu müddəada nəzərdə tutulmuş 2 əsasdan yalnız birini (cinayət işinin başlanmasının rədd edilməsi ilə bağlı cinayət prosesini həyata keçirən orqanın qərarı) qeyd etsə də digərini (cinayət işinin başlanmasının rədd edilməsi ilə bağlı cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətləri) nəzərə almadan ona hüquqi qiymət verməmişdir.

Məhkəmə qanunu düzgün tətbiq etməyərək elə nəticəyə gəlmişdir ki, cinayət təqibi üzrə təhqiqat materiallarını polis orqanının dəftərxanasında işə alınması və bununlada aparılan təhqiqat üzrə icraata xitam verilməsi  cinayət işinin başlanmasının rədd edilməsi ilə bağlı cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkəti deyil;

Belə olan halda Səbail RPİ-yə və Səbail rayon prokurorluğuna dəfələrərlə müraciət edərək bu təhqiqat araşdırılması üzrə qərar qəbul edilməsini xahiş etmişdik, lakin onlar tərəfindən heç bir qərar qəbul edilmədikdə A.Əliyeva yenidən Səbail məhkəməsinə müraciət edərək, yuxarıda qeyd edilən ilk şikayəti üzrə artıq 11 ay ərzində aparılan və 150 vərəqdən artıq olan bu təhqiqat araşdırmasının nəticələri üzrə

hələ də cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın qəbul edilməməsini qeyd edərək bunu CPM-nin kobud pozuntusu kimi qiymətləndirməsini xahiş etmişdir. Belə ki, CPM-nin 207.1.3-cü maddəsinə əsasən, törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxılmasının (aparılmış yoxlamanın) nəticələri üzrə cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edilməlidir.

CPM-nin 207.5-ci maddəsinə əsasən, törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatların alındığı hər bir halda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı qərarlardan birini qəbul etməlidir:

207.5.1. cinayət işi başlamaq;

207.5.2. cinayət işinin başlanmasını rədd etmək;

207.5.3. məlumatı istintaq aidiyyəti üzrə göndərmək;

207.5.4. xüsusi ittiham qaydasında təqib olunan cinayətə dair məlumatı məhkəmə aidiyyəti üzrə göndərmək.

CPM-nin 210.1-ci maddəsinə əsasən, cinayət işinin başlanması üçün əsas olduğu halda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz səlahiyyətləri daxilində cinayət işinin başlanması barədə qərar çıxarır.

CPM-nin 210.4-cü maddəsinə əsasən, cinayət işinin başlanması barədə qərarın surəti həmin qərarı qəbul etmiş şəxs tərəfindən 24 saat müddətində cinayət haqqında məlumat vermiş şəxsə, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir.

CPM-nin 212.1-ci maddəsinə əsasən, cinayət işinin başlanması üçün əsasın olmadığı halda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar çıxarır.

CPM-nin 212.2-ci maddəsinə əsasən, cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın surəti həmin qərarı qəbul etmiş şəxs tərəfindən 24 saat müddətində

cinayət haqqında məlumat vermiş şəxsə, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir.

CPM-nin 449.2-ci maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından zərər çəkmiş şəxs və onun qanuni nümayəndəsi, habelə qərarın qəbul edilməsi və ya hərəkətin aparılması nəticəsində hüquq və azadlıqları pozulan digər şəxslər verə bilər;

AR Konstitusiya Məhkəməsinin 05.08.2009-cu tarixli qərarına əsasən, CPM-nin 449-cu maddəsində təhqiqatçının, müstəntiqin və prokurororun şikayət verilə biləcək "hərəkət"ləri anlamı qeyd olunan bu şəxslərin "hərəkətsizliyi"ni də ehtiva edir.

CPM-nin 449.3-cü maddəsinə əsasən, 449.3. bu Məcəllənin 449.2-ci maddəsində göstərilən şəxslər cinayət prosesini həyata keçirən orqanın cinayət işinin başlanmasının rədd edilməsinə, cinayət işi üzrə icraatın dayandırılmasına və ya ona xitam verilməsinə dair prosessual hərəkətlərindən və ya qərarlarından məhkəməyə şikayət vermək hüququna malikdirlər.

AR Konstitusiyasının 26-cı maddəsinə əsasən, I. Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. II. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

AR Konstitusiyasının 60-cı maddəsinə əsasən, I. Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

AR Konstitusiyasının 71-ci maddəsinə əsasən, I. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

AR Konstitusiyasının 133-cü maddəsinə əsasən, I. Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır;

BMT-nin "İnsan hüquqları haqqında" Ümumi Bəyannaməsinin 12-ci maddəsinə əsasən, Heç kim şəxsi və ailə həyatına müdaxiləyə, evinin toxunulmazlığına, məktublaşmasının gizliliyinə, şərəf və nüfuzuna özbaşına qəsdə məruz qala bilməz.

Hər bir şəxsin belə müdaxilə və qəsddən qanun tərəfindən müdafiə olunmaq hüququ var.

BMT-nin "İnsan hüquqları haqqında" Ümumi Bəyannaməsinin 8-ci maddəsinə əsasən, Hər bir şəxs Konstitusiyanın və ya qanunun ona verdiyi hüquqların pozulması zamanı səlahiyyətli milli məhkəmələr tərəfindən hüquqlarının bərpa olunması hüququna malikdir.

BMT-nin "İnsan hüquqları haqqında" Ümumi Bəyannaməsinin 28-ci maddəsinə əsasən, Hər bir şəxsin bu Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların tam şəkildə həyata keçirilə biləcəyi sosial və beynəlxalq nizam hüququ var.

BMT-nin "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 17-ci maddəsinə əsasən, 1. Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla və yaxud qeyri-qanuni müdaxilə, onun evinin toxunulmazlığına və məktublaşmalarının gizliliyinə özbaşınalıqla və ya qeyri-qanuni qəsd və ya onun ləyaqəti və nüfuzuna qeyri-qanuni qəsd edilə bilməz. 2. Hər bir insan belə müdaxilə və belə qəsdlərdən qanunla qorunmaq hüququna malikdir.

BMT-nin "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 17-ci maddəsinə əsasən, Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir ayrı-seçkiliyə yol verilmədən qanunla bərabər müdafiə olunmaq hüququna malikdirlər.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6 -cı maddəsinə əsasən, 1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən ... qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 8-ci maddəsinə əsasən, 1. Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 1-ci maddəsinə əsasən, razılığa gələn Yüksək Tərəflər onların yurisdiksiyası altında olan hər kəs üçün bu Konvensiyanın 2 bölməsində müəyyən olunmuş hüquq və azadlıqları təmin edirlər.

“İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasının 13-cü maddəsinə əsasən, bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir.

CPM-nin 12-ci maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən bütün şəxslərin Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunmasını təmin etməlidirlər.

Lakin, bu işədə yenidən baxan Səbail rayon məhkəməsinin Hakimi Famil Nəsibov 21.09.2012-ci il tarixli qərarı ilə nəzarət qaydasında verilmiş 18.09.2012-ci il tarixli şikayət ərizəsini də geri qaytarmışdır;

Məhkəmə CPM-nin 449-cu maddəsinin müxtəlif hissələrini qərara köçürərək, qərarını onunla əsaslandırmışdır ki, ərizəçi tərəfindən konkret olaraq hansı qərardan şikayət verilməsi göstərilməmiş və həmin qərar şikayətə əlavə edilməmişdir. A.Əliyeva Səbail rayon məhkəməsinin bu qərarını qərəzli, əsassız və qanunvericiliyə zidd hesab etmişdir. Belə ki, CPM-nin 449.3-cü maddəsinə əsasən cinayət prosesini həyata keçirən orqanın nəinki prosessual qərarlarından, eyni zamanda hərəkətlərindən (hərəkətsizliyindən) də nəzarət qaydasında məhkəməyə şikayət vermək olar;

CPM-nin 449.3.5-ci maddəsinə əsasən isə cinayət işinin başlanmasının rədd edilməsi, cinayət işi üzrə icraatın dayandırılması və ya ona xitam verilməsindən (bu hallar prosessual qərar və ya hərəkət formasında olmasından asılı olmayaraq) nəzarət qaydasında məhkəməyə şikayət vermək hüququnu nəzərdə tutur.

Belə olan halda, təhqiqat araşdırılması üzrə 10 ay ərzində heç bir prosessual qərarın qəbul edilməməsini (bu qərarın mövcud olmamasını) cinayət işinin başlanmasının rədd edilməsinə yönəlmiş hərəkət kimi qiymətləndirməyən məhkəmə eyni zamanda cinayət prosesini həyata keçirən orqanın bu araşdırma üzrə heç bir prosessual qərarın qəbul edilməməsinə yönəlmiş hərəkətlərdən də verilmiş şikayəti mümkünsüz hesab etmişdir.

Nəticə etibarı ilə demək olar ki məhkmələr CPM-nin normalarına formal olaraq yanaşır və ədalət mühakiməsi əvəzinə vətəndaşların hüquqlarının müdafiəsinə yönəlmiş fəaliyyətlə məşğuldur.